

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 192 (21.853)

11 oktyabr 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının növbəti şura iclası keçirilib

Şura iclasını giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, bu il müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mühüm yer tutan Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü tamam olur. Yeni Azərbaycan Partiyası 25 illik fəaliyyəti dövründə ümummilli liderimiz Heydər Əliyevin ideyalarına əsaslanaraq çox böyük və şərəfli yol keçib. 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Yeni Azərbaycan Partiyası Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevrilməsində fəal rol oynayıb. Ölkəmizin bugünkü inkişafında böyük xidmətləri olan partiya ötən illər ərzində xalqın ümidlərini doğruldaraq ümumxalq partiyasına çevrilib.

Qeyd olunub ki, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu siyasətin nəticəsində hazırda ölkəmiz güclü dövlətə çevrilib. Bu gün hərtərəfli inkişaf edən respublikamız və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Heydər Əliyev ideyalarının işığında özünün hərtərəfli yüksəliş mərhələsini yaşayır.



Sevda Quliyeva Yeni Azərbaycan Partiyası Rayon Təşkilatı tərəfindən ötən doqquz ayda əlamətdar və tarixi günlərlə bağlı bir sıra tədbirlər keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının tərkibində fəaliyyət göstərən 31 ərazi ilk partiya təşkilatında 2 min 959 nəfər partiya üzvü vardır. Bunların da 1136 nəfərini qadınlar, 874 nəfərini gənclər təşkil edir. Bu ilin 9 ayı ərzində partiyanın sıralarına qəbul olunanların sayı 40 nəfər olub ki, bunların da 26 nəfəri qadın, 23 nəfəri gənclərdir. Bununla yanaşı, Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunan partiya üzvlərinin siyasi-ideoloji hazırlığı diqqət mərkəzində saxlanılıb, keyfiyyət amilinə üstünlük verilib. 2017-ci ilin 9 ayı ərzində ərazi ilk partiya təşkilatlarında gənc və yaradıcı qüvvələrin partiya sıralarına qəbul edilməsinə nail olunub, gənclərlə iş daim diqqət mərkəzində saxlanılıb, Qadınlar Şurasının fəaliyyəti gücləndirilib. 2017-ci ilin 9 ayında təşkilatın 1 şura, 3 idarə heyəti yığıncağı keçirilib.

Yeni Azərbaycan Partiyası Rayon Təşkilatının bəhs olunan dövrdəki fəaliyyətindən danışan Sevda Quliyeva bildirib ki, təşkilat öz işini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələbləri səviyyəsində qurub. Keçirilən partiya yığıncaqlarında görülən işlərin hesabatı dinlənilib, işin keyfiyyətinin artırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Ərazi ilk partiya təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, onlara metodik köməkliklər göstərilib.

Qeyd olunub ki, təşkilati işlər bundan sonra da diqqət mərkəzində saxlanılmalı, vətənpərvər, ictimai işlərdə fəal və təşəbbüskar gənclərin partiya sıralarına cəlb edilməsinə diqqət artırılmalıdır. Hər bir partiya üzvü partiyanın Proqram və Nizamnaməsinin tələblərinə, prinsiplərinə əməl etməli, rayonda gedən quruculuq, abadlıq və yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində səyini əsirgəməməlidir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Gənclər Təşkilatı Kəngərli Rayon Birliyinin sədri Süleyman Süleymanov, rayon Əhalinin Sosial Müdafiə Mərkəzi ərazi ilk partiya təşkilatının sədri Məhərrəm Hacıyev, Böyükdüz kənd ərazi ilk partiya təşkilatının sədri Vaqif Babayev, Çalxanqala kənd ərazi ilk partiya təşkilatının sədri Ehtiram İbrahimov çıxış ediblər.

Şura iclasında müzakirəyə çıxarılan məsələ ilə əlaqədar qərar qəbul olunub.

**Babək İSMAYILOV**

## Pedaqoji təcrübənin başlanğıc konfransı olub



***Naxçıvan Dövlət Universitetində 2017-2018-ci tədris ilinin birinci semestrində aparılacaq pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib.***

Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, pedaqoji təcrübə yüksəkixtisaslı, mənəvi-əxlaqi dəyər və keyfiyyətlərə malik kadrların hazırlanmasında və onların gələcəkdə səmərəli fəaliyyətində mühüm rol oynayır. Rektor tələbələrə və təcrübə rəhbərlərinə pedaqoji təcrübəyə məsuliyyətlə yanaşmağı və bu dövrü yüksək göstəricilərlə başa vurmağı arzulayıb.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün də ölkə Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi təhsil strategiyasından danışıb. Nazir bildirib ki, məhz həmin təhsil strategiyasının nəticəsi kimi son illər Naxçıvan Muxtar Respublikasının bütün ümumtəhsil məktəblərinin binaları yenidən tikilib və ya əsaslı təmir olunub, lazımi avadanlıqlarla təchiz edilərək müəllim və şagirdlərin istifadəsinə verilib. Naxçıvan Dövlət Universitetində kadr hazırlığı işinin təşkilindən danışan nazir universitetin pedaqoji profilli IV kurs tələbələrindən 217 nəfərinin on beş gün ərzində muxtar respublikanın 13 tam orta məktəbində pedaqoji təcrübə keçəcəyini diqqətə çatdırıb.

Tədbirdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin əməkdaşı Qızıllı Əliyeva, universitetin Ümumi tarix kafedrasının müəllimi İsmayıl Zeynalov çıxış ediblər.

**Nərmin CABBAROVA**

## Ali təhsil ocaqları üçün quruculuq işləri aparılır

***Naxçıvan Müəllimlər İnstitutunun binasında "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi tərəfindən aparılan əsaslı yenidənqurma işləri davam etdirilir.***

Obyektin iş icraçısı Orxan Orucovun bildirdiyinə görə, yeni inşa olunan 6 mərtəbəli korpusda əsas işlər yekunlaşdırılıb. Yeni korpusun zirzəmisində mətbəx, arxiv, idman zalı və bufet yerləşəcək. Burada rektor, müəllimlər otağı, 4 kompüter otağı, 5 kafedra, 24 auditoriya, kitabxana, oxu zalı, 160 yerlik iclas zalı, kurikulum mərkəzi istifadəyə veriləcək.





Məlumat üçün bildirək ki, əvvəlki korpusun və yeni inşa olunan binanın fasadı müasir memarlıq ənənələrinə uyğun olaraq dizayn edilir, burada daş üzləmə və boya işləri aparılır. İnşaat işlərində muxtar respublikanın tikinti materialları istehsal edən müəssisələrinin keyfiyyətli məhsullarından istifadəyə üstünlük verilib. Bu da binanın dözümlülüyünə və möhkəmliyinə təsir edən əsas amillərdəndir.

Tikintidə təhlükəsizlik qaydalarına da ciddi əməl edilir, işçilər bunun üçün lazım olan müxtəlif ləvazimatlarla mütəmadi olaraq təmin olunurlar. Obyektdə işlərin gedişatı onu deməyə əsas verir ki, gələcəyin pedaqoqlarını yetişdirən bu ali təhsil ocağı yaxın vaxtlarda istifadəyə veriləcək.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 14 yanvar tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi qeyd edilməkdədir. Universitet şəhərciyində İqtisad fakültəsi üçün istifadəyə veriləcək ikimərtəbəli müasir tədris korpusu bu ali təhsil ocağının kollektivinə ən böyük töhfə olacaqdır. Burada 37 ədəd kompüterlə təchiz edilmiş kompüter otağı, 3 kafedra, 20 auditoriya, 4 elektron lövhəli otaq, 102 yerlik iki mühazirə otağı istifadəyə veriləcək. Müasir tədris və texnoloji avadanlıqlarla təchiz edilən bina pedaqoji heyətə yeni-yeni nailiyyətlər qazandıracaqdır.

**✍ Nail ƏSGƏROV**

***Muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyası regionumuzda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin edir, istehsalçı müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırır.***

## Yaradılmış şərait istehlak mallarının ekspertizasının beynəlxalq standartlara uyğun şəkildə aparılmasına imkan verir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən cəmiyyətin ötən illər ərzində maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib, ABŞ, Almaniya, İngiltərə, Polşa, İtaliya, Türkiyə istehsalı olan, beynəlxalq standartlara uyğun laboratoriya avadanlıqları alınıb quraşdırılıb. Laboratoriyada mütəmadi olaraq yerli və idxal məhsullarından nümunələr götürülərək təhlillər aparılıb. Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də yerli istehsal və idxal məhsullarının orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji və toksikoloji göstəricilərinin yoxlanması təşkil edir.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, 2017-ci ilin 9 ayı ərzində 651 halda hüquqi və 1001 halda fiziki şəxslər tərəfindən daxil olmuş 88 mal çeşidini əhatə edən 1652 halda mal nümunəsi laboratoriya analizindən keçirilib və 1400 halda səyyar laboratoriya təhlilləri aparılıb. Bu təhlillər, əsasən, 1183 yerli istehsal məhsullarını və 469 idxal məhsullarını əhatə edib. Nəticədə, 1637 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 15 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilib. Məhsulların keyfiyyətində yaranmış nöqsanların aradan qaldırılması üçün qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

Bundan əlavə, cari ilin 9 ayı ərzində "Gəmiqaya Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinə 1266 ton travertin məhsulunun Türkiyə və Gürcüstan respublikalarına ixracı üçün 38 halda, "Naxçıvan Sement Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinə 18770 ton sement, məsaməli beton və gipsolet lövhə məhsullarının Gürcüstan Respublikasına ixracı üçün 18, "Təchizat" ATSC-yə 179.12 ton iribuynuzlu heyvan dərisinin Türkiyə Respublikasına ixracı üçün 7, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinə 173 ton "Sirab" mineral sularının Türkiyə və İraq respublikalarına ixracı üçün 7, "Ləzzət Biskvit Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinə 293 ton vafli məhsulunun Türkiyə, Gürcüstan, İraq respublikalarına və Birləşmiş Ərəb Əmirliklərinə ixracı üçün 9, "Badamlı Mineral Sular Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinə 90.76 ton "Badamlı" mineral süfrə suyunun Birləşmiş Ərəb Əmirliklərinə ixracı üçün 4, "Orqanik Məhsul" Məhdud Məsuliyyətli Cəmiyyətinə 6.31 ton orqanik saman məhsulunun Türkiyə Respublikasına ixracı üçün 1, "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinə 1.9 ton elektrik dirəklərinin Gürcüstan Respublikasına ixracı üçün 1, "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə 116.4 ton cəviz ləpəsinin Türkiyə Respublikasına ixracı üçün 7, fiziki səxslər Zaur Məmmədov və Xəyal Hüseynova 217 ton badam içi, 85 ton qırmızı bibər məhsullarının Türkiyə Respublikasına ixracı üçün 20, "Şirvanşahlar Xarici İqtisadi Əlaqələr" Assosiasiyasına 11.32 ton PVC ayaqqabı altlığının Bakı şəhərinə göndərilməsi üçün 5 halda olmaqla, 117 halda mənşə sertifikatının hazırlanması və ekspertizası aparılıb.

Qeyd edək ki, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyasının İSO 17025 standartı üzrə beynəlxalq akkreditasiyasının aparılması üçün Latviya Respublikasının Beynəlxalq akkreditasiya orqanı olan LATAK-la müqavilənin bağlanması təmin edilib. Ötən dövr ərzində cəmiyyətin Mərkəzi qida sınaq laboratoriyasında kimyəvi, toksikoloji və mikrobioloji laboratoriya təhlilləri üzrə Türkiyə Respublikasının "KarmaLab" şirkətindən dəvət olunmuş mütəxəssislər tərəfindən kurslar keçirilib. 7-14 sentyabr tarixlərində keçirilmiş kurslarda laboratoriyanın əməkdaşlarına sertifikatlar təqdim olunub. 25-27 sentyabr tarixlərində Latviya Respublikasının Beynəlxalq akkreditasiya orqanının ekspertləri tərəfindən 2017-ci ilin İSO 17025 standartı üzrə audit yoxlamaları aparılıb.

Bununla yanaşı, cəmiyyətdən verilən məlumata görə, muxtar respublikada fəaliyyət göstərən və ərzaq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri istehsal etdikləri məhsulların keyfiyyətinin beynəlxalq standartlar səviyyəsində yoxlanılması üçün laboratoriyanın xidmətlərindən istifadə edə bilərlər.

**✍ Səbuhi HƏSƏNOV**



# Naxçıvanda etibarlı içməli su təminatı yaradılıb

***Su dünyada mövcud olan ən vacib nemətlərdəndir. Canlı həyatın yaranması və yaşaması üçün onun nə qədər əvəzedilməz olduğunu hər kəs bilir. İnsan ehtiyacları üçün lazım olan şirin su ehtiyatları isə təbiətdə məhdud olduğu qədər onun keyfiyyəti və təhlükəsizliyi də həmişə diqqət mərkəzində olub.***

Ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında insanların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən işlər arasında əhalinin keyfiyyətli içməli su ilə daimi təmin olunması diqqət mərkəzində olan məsələlərdəndir. Təmiz su təminatı həyati zərurət olmaqla yanaşı, həm də bir yaşayış keyfiyyəti və mədəni səviyyə standartı kimi də qəbul edilir. Belə bir vacib məsələ də dövlətimizin rolunu artırır. Şübhəsiz, Naxçıvan Muxtar Respublikası kimi su ehtiyatlarının qeyri-bərabər paylanıldığı bir regionda bu məsələnin uğurlu həlli xeyli zəhmət və vəsait hesabına başa gəlir. Artıq bir neçə ildir ki, Naxçıvan şəhərində və muxtar respublikamızın əksər iri yaşayış məntəqələrində istifadəyə verilmiş fasiləsiz, keyfiyyətli içməli su, bu mənada, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına yönəlmiş mühüm işlərin tərkib hissəsi kimi diqqəti cəlb edir. Bu istiqamətdə davam etdirilən tədbirlər isə yaxın gələcəkdə muxtar respublikanın hər yerində insanların keyfiyyətli su ilə təmin olunması məsələsini həll edəcəkdir. Çünki təmiz su, təmiz qida sağlam həyat və yaşayış tərzidir.

Sudan söhbət düşəndə, heç şübhəsiz, hər bir naxçıvanlı ailəsinin 15-20 il əvvəllər evinə su çəkə bilməsi üçün hansı əziyyətlərə qatlaşması yada düşür. Azı iki su nasosu ilə yuxarı mərtəbələrə su qaldırmağımızı, təzyiq əldə etmək, yaxud yayın istisində və qışın şaxtasında su ilə bağlı yaranan problemləri necə primitiv yollarla həll etdiyimizi yaxşı xatırlayırıq. Odur ki, indi sürətli axınla evimizə qədər qalxan büllur kimi təmiz sudan istifadə edəndə bu gözəl nemətin dəyərini bilməli, bu şəraiti yaradanlara minnətdar olmalıyıq.

Su təsərrüfatı mürəkkəb sahədir. Belə ki, əhalinin davamlı içməli su ilə təminatında onlarla və hətta bəzi yerlərdə yüzlərlə kilometr məsafədən çəkilmiş yüksək təzyiqə davamlı su kəmərləri, milyonlarla manata başa gələn bəndlər, mürəkkəb hidrotexniki və sutəmizləyici qurğular, xidmətə hər an hazır olan təmir işçiləri, alınmış yüksək texnoloji avadanlıqlar xüsusi rol oynayır. Çəkilmiş su xətlərində təzyiqin normada saxlanılması, qəzalara yol verilməməsi və baş vermiş qəza hallarında onun dərhal aradan qaldırılması üçün operativ tədbirlərin görülməsi, habelə su istifadəçisi olan abonentlərlə işlərin aparılması bu sahədə çalışanların gündəlik qayğılarındandır. Məqsəd dövlətin külli miqdarda vəsaiti hesabına başa gəlmiş müasir su təchizatı sisteminin insanların artan tələbatını ödəyə bilməsi və rifahımızın yüksəlməsi üçün lazımi xidmətlərin göstərilməsidir.



Naxçıvan şəhərində 100 mindən artıq sakin yaşayır. Şəhərin və ətraf kəndlərin etibarlı içməli su təminatını həyata keçirmək üçün 2014-cü ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmiş Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi şəhər sakinlərinin tələbatını tam ödəyir. Bu mühüm hidroobyektdə suyun təmizlənməsi üçün ən müasir qurğu və avadanlıqlardan istifadə olunur, su təbii mineral tərkibi saxlanılmaqla təmizlənir. Üçqat təmizləmənin aparıldığı kompleksdə Hollandiya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Nanofiltr sistemli membranlar vasitəsilə xətlərə verilən suyun tərkibi təbii bulaq suyu qədər təmizlənir. Beləliklə, əldə olunmuş keyfiyyətli içməli su müasir tələbləri ödəməklə yanaşı, məişət avadanlıqlarının və evlərdə istifadə olunan su xətlərinin vaxtından əvvəl sıradan çıxmasına səbəb olmur.

Bəs hazırda Naxçıvanda su təminatı sarıdan vəziyyət necədir? Bu barədə Naxçıvan Şəhər Su-Kanalizasiya İdarəsindən aldığımız məlumatda deyilir ki, ötən illərdə olduğu kimi, bu ilin ilk səkkiz ayında da şəhərimizin keyfiyyətli su ilə təmin olunmasına çalışılıb. İlin əvvəlindən 4 milyon kubmetrdən artıq içməli suyun verildiyi 22 min 600-dən artıq abonentə xidmət göstərən idarədə suyun dayanıqlı təminatı üçün hər cür şərait var. Eyni zamanda burada lazımi mal-material ehtiyatı yaradılıb. Abonentlərin təkcə Naxçıvan şəhərində deyil, həm də Qaraxanbəyli, Qaraçuq, Bulqan, Tumbul kəndləri üzrə də olması daha geniş ərazidə lazımi profilaktik tədbirlərin aparılmasını tələb edir. Belə tədbirlər isə payız-qış mövsümündə daha da zəruridir. Su siyirtmələrinə vaxtında baxış keçirilməsi, quyuların yad cisimlərdən təmizlənməsi Naxçıvanın sərt qışında ola biləcək qəza halları zamanı əhalinin qarşılaşa biləcəyi çətinlikləri aradan qaldırır.

*Naxçıvan Muxtar Respublikasında insanların həyat səviyyəsinin artırılması üçün lazım olan bütün tədbirlər həyata keçirilir. Ancaq onlar arasında, şübhəsiz, təmiz su ilə təminat hər şeydən vacibdir. Bu mənada, muxtar respublikamızın paytaxtında və digər bölgələrində su-kanalizasiya problemlərinin həlli dövlətimizin hər bir vətəndaşına, onun sağlamlığına göstərdiyi qayğının daha bir nümunəsidir.*

**✍ Əli CABBAROV**

*Müasirləşən kəndlərimiz*

# Bənəniyar kəndi yeni inkişaf dövrünü yaşayır

***Culfa rayonu, ümumilikdə, 22 kənd və 1 rayon mərkəzindən ibarətdir. Bu kəndlərin, demək olar ki, əksəriyyətində tikinti-quruculuq işləri aparılıb, onlar müasir yaşayış məntəqələrinə çevriliblər. Bu günlərdə rayonun Bənəniyar kəndində olduq.***



Bu yaşayış məntəqəsi Zəngəzur silsiləsinin ətəyində, Əlincə çayının sağ sahilində 58,33 kvadratkilometr ərazidə yerləşir. Bəzi ədəbiyyatlarda Bənəniyar ilə yanaşı, "Bənənigar" adı da qeydə alınıb. Bu toponim bənən (bələn) və yar (yarğan, dərə) komponentlərindən ibarət olub, dağ boynunda yarğan, dağ aşırımında çuxur, yer mənalarını bildirir. Kəndin coğrafi mövqeyi də ifadə olunan mənaya uyğun gəlir.

Muxtar respublikamızda həyata keçirilən quruculuq strategiyası Culfa rayonunun digər kəndləri kimi, Bənəniyar kəndinə də yeni görkəm gətirib. Burada 2014-cü ildə başlanılan kompleks quruculuq işləri 2015-ci ildə başa çatdırılıb, həmin ilin fevral ayının 5-də kənd tam orta məktəbinin və uşaq musiqi məktəbinin, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının yeni binaları istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov kənd tam orta məktəbinin yeni binasının açılışı münasibətilə məktəbin kollektivini təbrik etmiş, onlara tədrisdə uğurlar arzulayaraq demişdir: ***"Məktəblərin informasiya-kommunikasiya texnologiyaları və lazımi tədris avadanlıqları ilə təminatı, müəllimlərin hazırlıq səviyyələrinin artırılması, şagirdlərin bilik və dünyagörüşlərinin formalaşdırılması müasir tədrisin qarşıya qoyduğu əsas vəzifələrdir. Çünki gənclərin hərtərəfli hazırlanması müasir dövrün tələbinə çevrilmişdir. Ölkəmizin hansı bölgəsində yaşamasından asılı olmayaraq, gənc nəsil dünyada gedən prosesləri yaxından izləməli, yaxşı təhsil almalı, gələcəkdə dünyanın və ölkəmizin istənilən universitetlərində ali təhsillərini davam etdirməlidirlər".***

Məlumat üçün bildirək ki, bu təhsil ocağının əsası 1969-cu ildə qoyulub. Üçmərtəbəli yeni məktəb binası 666 şagird yerlikdir. Binada 4-ü elektron lövhəli olmaqla, 37 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter və 2 şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Məktəbin kitabxanasının fondu 12 minə yaxın kitabla zənginləşdirilib. Kitabxana hər il yeni kitablarla təmin olunur.

Hazırda məktəbdə 428 şagird təhsil alır, eyni zamanda 33 uşaq məktəbəqədər hazırlıq qrupuna cəlb olunub. Burada 57 kompüter mövcuddur və bu kompüterlərin hər biri internetə qoşulub, elektron dərsliklərlə təmin olunub. Dərslər elektron lövhəli sinif otaqlarında keçilir. Məktəbin 7-ci sinif şagirdlərinin tarix fənni dərsində iştirak etmək imkanımız oldu. Şagirdlərin fəallıqları, dərsə münasibətləri bir daha həmin fənnin yüksək səviyyədə tədris olunduğunu göstərdi. Təhsil ocağında şagirdlərə rus, alman, ingilis, fars dilləri olmaqla, 4 xarici dil tədris edilir.

Fəaliyyət göstərdiyi dövrdə Bənəniyar kənd tam orta məktəbinin məzunları yüksək nəticələr əldə ediblər. Bu baxımdan 2016-2017-ci tədris ili də istisna deyil. Həmin ilin məzunlarının 11 nəfəri ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunub.

Məktəbdə sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır, şagirdlərin müxtəlif müsabiqələrdə, bilik və idman yarışlarında iştirakları təmin edilir. Bu da onların mükəmməl, hərtərəfli təhsil almalarına imkan verir.





Bənəniyar kəndində istifadəyə verilmiş uşaq musiqi məktəbinin yeni binasında yaradılan şərait, burada qazanılan uğurlar muxtar respublikada mədəniyyətin, musiqi təhsilinin inkişafına göstərilən diqqət və qayğının təzahürüdür. Uşaq musiqi məktəbinə doğru üz tutarkən kinoaktyor Silvester Stalloninin "Musiqi insan hisslərinin riyaziyyatı, riyaziyyat isə insan təfəkkürünün musiqisidir" fikrini xatırladım.

Məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərli musiqi məktəbinin 1982-ci ildə əsasının qoyulduğunu və artıq 35 ildir ki, fəaliyyət göstərdiyini bildirdi. Məktəb müasir avadanlıqlarla, o cümlədən 9 fortepiano və digər musiqi alətləri ilə təchiz olunub, şagirdlərin nəzəri və ixtisas biliklərinə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Hazırda təhsil ocağında 37 sinif, orkestr və konsert zalları, musiqi alətlərinin təmiri otağı, kitabxana və bufet vardır. Burada 128 şagird təhsil alır, 7 ixtisas tədris olunur: tar, kamança, xanəndəlik, skripka, fortepiano, nağara və qarmon. Rayonun 14 yaşayış məntəqəsindən buraya şagirdlər təhsil almaq üçün gəlirlər.

Məktəb fəaliyyət göstərdiyi dövrdə xeyli uğurlara imza atıb. 2016 və 2017-ci illərdə muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri arasında keçirilən "Lira" musiqili-intellektual oyununun qalibləri bəhs edilən dövrdə Bənəniyar kənd uşaq musiqi məktəbinin şagirdləri olub, onlara diplomlar təqdim edilib. Onu da qeyd edək ki, musiqi məktəbində təhsil alanlar indiyədək onlarla fəxri fərman və diplomlar qazanıb, dəfələrlə birincilik əldə ediblər. Bu da, öz növbəsində, müəllimlərin işlərinə məsuliyyətlə yanaşdığının göstəricisidir.

Kompleks quruculuq tədbirləri çərçivəsində kənddə həkim ambulatoriyası üçün də yeni bina inşa olunub. Ambulatoriya 8 otaqdan – baş həkim, stomatoloq üçün kabinə, 2 çarpayılı palata, aptek, doğuş, peyvənd, manipulyasiya və qeydiyyat otaqlarından ibarətdir. Burada 6 tibb işçisi sakinlərin sağlamlığının keşiyində dayanır. Aparılan yenidənqurma işləri tibbi xidmətin daha səmərəli təşkilinə imkan verib. Otaq və kabinələrin hər biri təyinatı üzrə müasir avadanlıqlar və lazımi dərman vasitələri ilə təchiz olunub. Ambulatoriyada həm də aptek fəaliyyət göstərir.

2015-ci ildə Bənəniyar sakinlərinin istifadəsinə müasir səviyyədə tikilmiş kənd mərkəzi də verilib. Kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, klub və 60 yerlik iclas zalı yerləşir.

Bənəniyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Səid Məmmədov deyir ki, bu yaşayış məntəqəsində aparılan abadlıq işləri çərçivəsində 1100 metr kənddaxili yola asfalt örtük salınıb, 151 metr uzunluğunda beton kanal çəkilib, 9 su keçidi qoyulub. Rabitə, elektrik və qaz şəbəkələrində yenidənqurma işləri aparılıb, 500 metr fiber-optik kabel çəkilib, 5 min 920 metr elektrik xətti yenilənib, yeni tikililərə 400 metr uzunluğunda qaz xətti çəkilib. Kəndin içməli su təchizatı da yaxşılaşdırılıb, mövcud kaptajın uzunluğu 100 metr artırılıb, 1500 metr yeni su xətti çəkilib və kənddəki 712 ailənin hamısı içməli su ilə təmin olunub.

Səid Məmmədov onu da vurğuladı ki, kənddə aparılan quruculuq tədbirləri bənəniyarlıların gün-güzəranının yaxşılaşdırılmasına, onların həyat səviyyəsinin yüksəldilməsinə hesablanıb. Görülən işlər hesabına kəndin əvvəlki görünüşündən əsər-əlamət qalmayıb. Biz bununla qürur duyur, kəndimizdə yaradılan gözəllikləri layiqincə qiymətləndirir, öhdəmizə düşən vəzifələri yerinə yetirmək üçün əlimizdən gələni edirik.

**Nəzrin MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***

***Qədim Naxçıvan əhalisi əsrlərlə dünyada sülh və inkişafı təmin etmək gücünə malik olan bir dinə – İslam dininə inanıb. Onun bütün dəyərləri xalqımız üçün müqəddəs olub, bu dəyərlər Naxçıvanda yaşadılıb, inkişaf etdirilib. Məlumdur ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub. Bununla bağlı hazırlıq işləri uğurla davam etdirilir. Eyni zamanda Naxçıvanın İslam mədəniyyətinin inkişafında oynadığı tarixi rola da bir daha nəzər salınır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli ilə söhbətimiz də elə bu mövzuda oldu.***

*Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı*

# Naxçıvanın İslam mədəniyyətinin paytaxtı seçilməsi qədim yurdumuzun zəngin tarixinin və mədəni irsinin təbliğinə öz töhfəsini verəcək

***– Fəxrəddin müəllim, Naxçıvanda İslam dininin təşəkkül tapması barədə nə deyə bilərsiniz?***

– Bir yaşayış məskəni kimi əsası çox qədimlərdə qoyulan, təxminən, 5 min il bundan əvvəl şəhər kimi formalaşan Naxçıvan çox böyük inkişaf yolu keçmişdir. Bu inkişafın nəticəsi olaraq Naxçıvan şəhəri hələ eramızın əvvəllərindən mühüm inzibati mərkəz kimi tanınmışdır. Həmin dövrdə şəhər Sasanilər dövlətinin mühüm dayaq məntəqələrindən biri olmuş, hətta bəzi vaxtlar mərzbanlar öz iqamətgahlarını buraya köçürmüşdülər. Qədim yaşayış məntəqəsinin bu inkişafı əhalinin islamlaşmasından sonra da davam etmişdir.



Məlumdur ki, ilk xəlifələr zamanı İslam dini Ərəbistan yarımadası çərçivəsindən çıxmış, ətraf ərazilərdə yayılmağa başlamışdır. Belə yerlərdən biri də Naxçıvan ərazisi olmuşdur. Bura da bir sıra Azərbaycan şəhərləri kimi sülh yolu ilə – müqavilə bağlamaqla xilafətin tərkibinə daxil olmuşdu. Ərəblərlə bağlanan müqaviləyə görə Naxçıvan əhalisi “əhli-kitab” sırasına daxil edilir, müqavilənin şərtini gözləməklə onların şəxsi və mülki toxunulmazlıqlarına zəmanət verilirdi. Başqa yerlər kimi, Naxçıvanın da İslam dünyası qarşısında vəzifələri bu dinin təlimini təbliğ etmək, ona etiqad etmək, vergi və xərac vermək idi. Bunun müqabilində isə xilafət onları xarici hücumlardan müdafiə etməli, əhalinin siyasi hüquqlarının və etiqad azadlıqlarının qorunub saxlanılmasını təmin etməli, onların şəxsi işlərinə qarışmamalı, mal-dövlətlərinə, şəxsiyyətlərinə hörmət etməli idi.

Ərəblər Naxçıvana böyük diqqətlə yanaşırdılar. Onlar bu diyarın hərbi-strateji əhəmiyyətini nəzərə alaraq özlərinin iqamətgahını Naxçıvanda yerləşdirməklə bölgəni hərbi-inzibati mərkəzə və Bizansa qarşı əsas dayaq nöqtəsinə çevirmişdilər.

***– Qədim mədəniyyət mərkəzi kimi Naxçıvanda İslamla bağlı abidələr də çoxluq təşkil edir. Bu abidələr ümumislam mədəniyyətində hansı yeri tutur?***

– Xilafətin yaranması ilə onun tərkibinə daxil olan digər xalqlar, o cümlədən Azərbaycan da özünün əldə etdiyi mədəni-elmi nailiyyətlər ilə birlikdə ümumislam mədəniyyət xəzinəsinə daxil oldu. Bundan sonra Azərbaycanda, o cümlədən Naxçıvanda əldə edilən bütün mədəni nailiyyətlər yerli türk ənənələrini saxlamaqla, həm də islami mahiyyət kəsb etdi və bu zəmində çoxlu tarix-mədəniyyət abidələri yaradıldı. Azərbaycanın hər yerində olduğu kimi, onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda da yaranan, bir qismi zəmanəmizədək salamat və ya yarımdağılmış vəziyyətdə gəlib çatan bu tarixi abidələrə ötən yüzillikdə, ateizm təbliğatına geniş meydan verilən sovet hakimiyyəti illərində biganə münasibət bəslənilmiş, hətta onların bir qismi qəsdən dağıdılmışdır. Ancaq Azərbaycan öz müstəqilliyini bərpa etdikdən, “Dini etiqad azadlığı haqqında” Qanun qəbul edildikdən, xüsusilə ümummilli lider Heydər Əliyevin respublikada hakimiyyətə qayıdışından sonra xalqımızın mədəni irsinə münasibət dəyişildi. Tarix-mədəniyyət abidələri, o cümlədən memarlıq nümunələri, geniş mənada, ümumislam mədəniyyətinə aid olan bütün abidələr lazımi dövlət qayğısı ilə əhatə olundu.

Qədim diyarımızda da bu sahədə çox böyük işlər görülmüşdür. İlk növbədə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2005-ci il 6 dekabr tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan bölgəsində 1218 tarix-mədəniyyət abidəsi qeydə alınaraq, pasportlaşdırılmışdır. Böyük bir qismi orta əsrlər dövrünə, başqa sözlə desək, Azərbaycanda İslamın qəbul edilməsindən sonrakı vaxtlara aid olan bu abidələr əsasında “Naxçıvan abidələri ensiklopediyası” hazırlanaraq 2008-ci ildə Azərbaycan və ingilis dillərində nəşr etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 60-dan artıq müxtəlif təyinatlı tarix-mədəniyyət abidəsi bərpa olunaraq əvvəlki görkəminə salınmış, onlara yeni həyat verilmiş, tədqiqi və təbliği sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Bu abidələrin əksəriyyəti məscidlər, imamzadələr, xanəgahlar, türbələrdir. Qeyd etmək kifayətdir ki, təkcə 2016-cı ildə Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Culfa rayonundakı Əlincəqalada, XII əsr Azərbaycan memarlığının təkrarolunmaz nümunələrindən sayılan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadədə bərpa işləri başa çatdırılmış, Babək rayonunun Nehrəm kəndində möhtəşəm məscid inşa edilərək əhalinin istifadəsinə verilmiş, Kəngərli bölgəsində XII-XIV yüzilliklərə aid Qarabağlar Türbə Kompleksində, Şərur rayonunun Yengicə kəndindəki tarixi hamamda bərpa işlərinə başlanmışdır. Həmçinin son illərdə muxtar respublikada bir sıra yaşayış məskənlərində möhtəşəm İslam memarlığı abidələri, xüsusilə məscidlər inşa edilərək əhalinin istifadəsinə verilmişdir. Bu iş sistemli şəkildə uğurla davam etdirilməkdədir.

***– Naxçıvanın Böyük İpək Yolu üzərində yerləşməsinin İslam mədəniyyətinin formalaşmasında hansı rolu olub?***

– Məlumdur ki, Avropa ilə Asiyanı birləşdirən Böyük İpək Yolu keçdiyi ölkələrin ərazilərində yaşayan xalqların iqtisadi-mədəni həyatında mühüm rol oynamışdır. Bu yolun üzərində yerləşən strateji məntəqələrdən biri də qədim Azərbaycan torpağı olan, ancaq tarixin müəyyən çağlarında süni surətdə Azərbaycanın əsas hissəsindən ayrı salınan Naxçıvan ərazisidir. Qeyd etmək lazımdır ki, Naxçıvanın orta əsrlər zamanı böyük iqtisadi və mədəni yüksəlişinə səbəb olan faktorlardan biri də məhz bu ticarət yolu üzərində yerləşməsidir. Xüsusilə şəhərin Yaxın Şərq və digər ölkələrlə çoxsahəli mədəni-iqtisadi əlaqələrinin artması onun inkişafına əsaslı təsir göstərmişdir. Böyük İpək Yolu ilə şərqdən-qərbə və əksinə hərəkət edən ticarət karvanları ilə bölgəyə gələn tacirlər, səyyahlar, alimlər Naxçıvanın bu inkişafını görmüş, öz yol qeydlərində bu haqda bəhs etmişlər. Ona görə də orta əsr qaynaqlarında Naxçıvan ərazisi, xüsusilə Naxçıvan şəhəri haqqında çox dəyərli və maraqlı məlumatlara rast gəlirik. Məsələn, bu qaynaqlarda Naxçıvan şəhəri “Yer üzündə bundan daha çox əhalisi olan şəhər yoxdur”, “Təbriz və Bağdaddan sonra Naxçıvan kimi cəlallı və əzəmətli şəhər yoxdur”, “Şəhərdə çoxlu saray, köşk və eyvan vardır... Köşklərin çoxu qəsrlər kimi üç-dördmərtəbəlidir” və sair bu kimi ifadələrlə, “Nəqşi-cahan” (“Dünyanın bəzəyi”) epiteti ilə tərənnüm olunmuşdur. Xüsusilə XVII yüzilliyin ortalarında Naxçıvanda olan türk səyyahı Övliya Çələbinin şəhərdə 10 min 200 evin, 70 Came məscidinin, 40 məscidin, 20 mehmanxananın, 7 hamamın, təqribən 1000 dükanın olması haqqında verdiyi məlumat çox böyük maraq doğurur. Əlbəttə, orta əsr müəlliflərinin verdikləri bu və digər çox maraqlı məlumatlar bölgəmiz, xüsusilə onun mərkəzi olan Naxçıvan şəhərinin orta əsrlər dövründəki yüksək mövqe və ehtişamından xəbər verir, onun haqqında obyektiv tədqiqatların aparılmasında mühüm rol oynayır.



***– 2018-ci ildə Naxçıvana İslam mədəniyyətinin paytaxtı missiyasının həvalə olunmasını necə dəyərləndirirsiniz?***

– Əlbəttə, bu qərar heç də təsadüfən verilməmişdir. Heç şübhəsiz ki, bu qərar verilməmişdən öncə İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri şəhərin tarixi ilə maraqlanmış, şəhərlə, muxtar respublikadakı şəraitlə tanış olmuşlar. “İslam mədəniyyətinin paytaxtları” proqramının tələblərinə görə, hər hansı bir şəhərə bu statusun verilməsi üçün həmin paytaxtın ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, İslam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə tədbirlər təşkil edən mədəni qurumlara malik olması vacib şərtdir. Məhz bütün bu tələblərə cavab verdiyi üçün İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu istiqamətdə görüləcək tədbirlərlə bağlı 2016-cı il 2 iyun tarixdə “Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunur: *“Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır”.*

***– Artıq Naxçıvanın İslam mədəniyyətinin paytaxtı olmasına bir neçə ay qalıb...***

– Bəli, yuxarıda qeyd etdiyimiz Təşkilat Komitəsinin 25 noyabr 2016-cı ildə ilk iclası keçirilmişdir. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov çıxış edərək Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qəbul edilən qərar haqqında demişdir: ***“Bu qərar əsaslıdır. Ona görə ki, Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri olan Naxçıvan islam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir”.***

Həmin çıxışda bu möhtəşəm tədbirlə əlaqədar qarşıda duran vəzifələrdən bəhs edilərkən bir sıra məsələlərlə yanaşı, muxtar respublikanın türk-islam mədəniyyəti nümunələri, dini abidələrlə zəngin olduğu diqqətə çatdırılmış, bu abidələrin tanıdılması ilə bağlı onlardan bəzilərinin İSESKO-nun siyahısına salınması istiqamətində iş aparılmasının, muxtar respublikanın ərazisində indiyədək gəlib çatan türk-islam mədəniyyəti abidələri haqqında kitablar nəşr olunmasının nəzərdə tutulduğu da vurğulanmışdır.

İlk iclasdan sonra ötən müddət ərzində bir sıra işlər görülmüş, mühüm tədbirlər həyata keçirilmişdir. İlk növbədə, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar loqotipin hazırlanması üçün müsabiqə elan olunmuş və müsabiqəyə təqdim edilmiş layihələr arasından loqotip seçilərək qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası tərəfindən “Naxçıvanın türk-islam mədəniyyəti abidələri” və “İslamda müdrik kəlamlar” kitabları, uzun illər boyu apardığımız tədqiqatların bəhrəsi olan “Naxçıvanın türk-islam mədəniyyəti abidələri” adlı monoqrafiya hazırlanaraq “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətdə nəşr etdirilmişdir.

Həmçinin “Naxçıvanın türk-islam abidələri” adlı televiziya filmi çəkilmişdir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə əlaqədar silsilə tədbirlər sırasında 2017-ci il iyul ayının 7-8-də “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda keçirilən beynəlxalq konfrans mühüm yer tutur. Amerika Birləşmiş Ştatlarından, Türkiyə Respublikasından, İran İslam Respublikasından, Bakı şəhərindən gəlmiş qonaqların və yerli alimlərin iştirakı ilə keçirilən konfransda Naxçıvanın türk-islam mədəniyyəti abidələri ilə bağlı maraqlı məruzələr dinlənilmişdir. Konfransın plenar iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov proqram xarakterli, dərin məzmunlu, istiqamətverici çıxış etmişdir. Çıxışında Naxçıvanda türk-islam mədəniyyəti abidələrinin meydana gəlməsi, Naxçıvan memarlıq məktəbinin yaranması, müasir dövrdə bu abidələrə diqqət və qayğı məsələlərindən bəhs edən Ali Məclisin Sədri demişdir: ***“Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi tərəfindən keçirilən “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfransı Naxçıvan Muxtar Respublikası ərazisindəki türk-islam mədəniyyəti abidələrinin öyrənilməsi və təbliğində yeni mərhələnin əsasını qoyacaqdır”.***

Ali Məclisin Sədri bu sözləri ilə bir sıra aid təşkilatların, o cümlədən AMEA Naxçıvan Bölməsinin, bütövlükdə Naxçıvanda yaşayıb-yaradan tədqiqatçıların qarşısında böyük vəzifələr qoymuş və bu istiqamətdə aparılan işlərlə yeni mərhələnin başlanmasına start verilmişdir. Ona görə də naxçıvanlı alimlər qüvvələrini səfərbərliyə almalı, muxtar respublika rəhbərinin tövsiyə və tapşırıqlarının yüksək səviyyədə yerinə yetirilməsi üçün səylə çalışmalıdırlar.

***– Maraqlı müsahibə üçün sağ olun.***

✍ **Ramiyyə ƏKBƏROVA**



Jurnalistin qeydləri

# Hər kim bilsə, söz qədrini...

Nizaminin yaradıcılıq manifesti sayılan "Sirlər xəzinəsi"nin müqəddiməsində şairin sözün qüdrəti və qiyməti, qızıla bərabər dəyərilə bağlı belə bir məqam var:

*Kimsə alıb söz və zəri bir sabah*
*Sərrafa göstərdi, dedi: – Ey qoçaq,*
*Köhnə qızıl ya təzə söz yaxşıdır?*
*Söylədi usta: – Təzə söz yaxşıdır.*

Bəli, söz vaxtında və yerində, haqlı olaraq deyiləndə qiyməti qızıldan da baha olur. Təzə söz demək isə tarixən çətin və məsuliyyətli olub. Çünki köhnə sözlər artıq işlənib və nəticələri də hər kəsə əyan olduğu səbəbilə çoxları üçün bu asan tapılan tikəyə çevrilib, hər kəs başını əvvəldə deyilən sözlərlə qatıb. Bu da söz tənbəlləri üçün əla fürsətə çevrilib, söz çeynəndikcə çeynənib, bir çox hallarda dəyərdən və kəsərdən düşüb. Sözdən söz çıxarmaq da adət, dəb halını alıb. Bu gün elə "söz ustalarımız" var ki, sözlə güştü tutmaqla nəsə yeni bir şey kəşf etdiyini zənn edir.

... Bu günlərdə Bakı şəhərindəki nəşriyyatlardan birinin qarşısında belə "söz ustaları"ndan biri ilə qarşılaşdım. İlk tanışlıq əsnasında məlum oldu ki, o, Naxçıvanda "yaşayıb-yaradan" şairlərdəndir. Çox sayda şeir kitabları var, (sözün düzü, bu adamın adını ilk dəfə eşidirdim və bu kitablarda nə yazıldığı hələlik mənim üçün qaranlıq idi), ancaq onların hamısı Naxçıvanda yox, paytaxtdakı özəl nəşriyyatlardan birində işıq üzü görüb. Bunun səbəbini soruşduqda həmin "şair" dedi ki, şeirləri çox gözəl olduğu üçün onun söz dünyasının "nemətlərini" heç kim həzm edə bilmir, buna görə də paxıllıq edir, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr etmək istəmirlər. Maraq üçün alıb bir-iki misra oxuyanda məlum oldu ki, misralar uzun müddət gecələr yata bilməyən və sonradan qısa müddətə yuxuya gedən birinin sayıqlamalarına bənzəyir:

*Ey gözəl, qoy bu el və aləm qurban olsun sənə*
*Yanağın lalə kimi, bər-bəzəkdir çöl-çəmənə*
*Qorxuram yıxılasan, ayağına daşlar dəyə*
*Düşməni güldürəsən, başlayalar lağ etməyə...*

Bu kimi "söz incilərini" oxuduqdan sonra vaqiədən hali oldum. Bu qaralamanı özünə hörmət edən naşir çapa buraxmazdı. Kitab çox keyfiyyətsiz şəkildə, necə deyərlər, başdansovdu çap edilmişdi və onu vərəqləyərkən tam ortadan ikiyə ayrıldı. Yaxşı ki "şair" tanışım bunu görmədi, kitabı tez büküb geri verdim. Məsələ ondaydı ki, paytaxtda adını çəkmədiyim nəşriyyat, sadəcə, bu işə maddi maraq dairəsindən yanaşaraq, pul qazanmaq üçün bu qəbildən "şair" və "yazar"ların kitablarını böyük həvəslə çap etmişdi. Yazıq binəvanı da inandırmışdılar ki, onun yazdıqları bənzərsiz incilərdir və onları kimsə gözügötürməzlikdən çapa buraxmayıb.

Açığı, son vaxtlar tez-tez bu qəbildən kitablarla qarşılaşıram. Elə kitablar var ki, Türkiyənin bulvar ədəbiyyatının təsiri özünü bütün çılpaqlığı ilə büruzə verir, elə kitablar da var ki, onlara ədəbiyyat nümunəsi – poema, roman, povest demək üçün min şahid lazım olar. Ancaq bu "əsərləri" oxucularına məsuliyyətlə və işinə vicdanla yanaşan "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap etmək mümkün olmadığından, belə "qələm adamları" paytaxta, bu işə sırf biznes məqsədilə yanaşan nəşriyyatlara üz tutmuşdular. Belə nəşriyyatlar üçün isə sözün dəyərinin sıfra bərabər olduğu hər kəsə məlumdur. Onları yalnız və yalnız nəşriyyata yolu düşənin cibi maraqlandırır. "Şeirləri"ni işə keçirmək istəyənlər üçün bu əla bir fürsətdir. Nə fərq edir, onsuz da onları heç kim oxumayacaq, bu kitablar rəflərdə qalıb çürüyəcək. Ancaq adı yaxşı səslənir: "Filankəsin 10 kitabı çapdan çıxıb". Halbuki bu kitabların onu yox, bir səhifəsi belə, heç bir işə yaramır. Kitabın çapına nə qədər pul xərcləsən də, fərqi yoxdur, onun içi də çölü kimi quru və nəfəssizdir.

Qurban Səidin "Əli və Nino" romanında müəllifin maraqlı bir fikri var: "Dəyənəyin iki başı olur. Bir yuxarı başı, bir aşağı başı. Onu baş-ayaq çevirəndə yuxarı baş aşağıya, aşağı baş da yuxarıya düşür. Bu arada dəyənəkdə heç nə dəyişməyib". Bu fikri bu gün bəzi "şair" və "yazar"larımızın "yaradıcılığı" haqda da demək olar. "Nəsimi" filmində Topal Teymurun böyük şairimiz Nəsimi ilə dialoqdan sonra öz ətrafındakı üləmalara ünvanladığı "Hanı sözünüzün qüdrəti?"– sualını bu gün belələrinə ünvanlasaq, yəqin ki, yenə cavab ala bilməyəcəyik. Çünki qüdrətli söz demək üçün, sözün həqiqi mənasında, qüdrətli qələm sahibi olmaq lazımdır. Tarixdə o sənətkarlar yaşayır ki, onların yaratdıqları dünən üçün də, bu gün və sabah üçün də lazımlıdır.

Hikmət və nəsihətləri ilə dünyada söz sahibi olan Nizami – Kamalındır dövlətin, kamalına arxalan, amalındır cömərdlik, amalına arxalan, – deyirdi. Həqiqətən də, kamalına və amalına arxalananların sözü dünya bina olandan bəri dillər əzbəri olub. Ancaq bu günün özündən bədgüman "şair"ləri ilə bircə kəlmə kəsəndə belə, əmin ola bilərsiniz ki, onlar əsərlərinin bədii keyfiyyətinə yox, ciblərinin vəziyyətinə arxalanırlar.

Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində qeyd edir ki, hər sənətin şərəfi onun məqsədindədir. Bəli, Tanrı hər bir sənəti yaradanda bu sənət və onunla məşğul olan sənətkar qarşısında bir məqsəd qoyub. Məqsədsiz olaraq, sadəcə, şan-şöhrət xatirinə bir sənətlə məşğul olmaq, ömrü boşuna sərf etmək anlamına gəlir. Sadəcə, mənəvi aclıq ucbatından "şeir yazmağı" qarşılarına məqsəd qoyan insanları xəlbirlə su daşıyan divə bənzətmək olar. O da nəyəsə can atır, ancaq onun əməyi sizif əməyinə bənzəyir, çünki su bir anda yerə tökülür. Boş yerə mürəkkəb və kağız tükədənlərin də işi buna bənzəyir, yazdıqlarını kimsə oxumur, mütaliə etmir.

Nikolay Ostrovski "Polad necə bərkidi" bioqrafik romanında yazırdı: "Pavel Korçagin çox güclü idi, ancaq gücünü nəyə sərf eləyəcəyini bilmirdi". Təəssüf ki, bu gün qarşılaşdığımız bəzi nümunələrdə şair və yazıçılarımızın çox zəngin söz ehtiyatına malik olduğu üzə çıxsa da, sözün nəyə və niyə sərf olunduğu haqda oxucularda xeyli suallar yaranır. Bəzən əsərlərin ən pik nöqtəsində söz adamlarımız əsas hədəfdən şaşıraraq, sanki zirvə qorxusu olan adamlar kimi, sağa-sola çırpınmağa başlayırlar. Halbuki əsərlərin kulminasiyası sözün qüdrətinin nümayiş etdiriləcəyi ən əlverişli məqamdır, ən geniş meydandır.

ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə məktubunda belə bir məqam diqqəti cəlb edir: "Ona bütün insanlara qulaq asmağı, qulaq asdıqlarını həqiqət ələyindən keçirib, ancaq yaxşıları özünə götürməyi, bacarsanız, kədərlənəndə belə, necə gülə biləcəyini öyrədin".

Bu gün yaradıcılıqla məşğul olan şair və yazıçılarımızdan oxucular çox şeylər gözləyir, ancaq gözlədiklərinin yüzdə birini belə, ala bilmirlər. Bəzi ədəbiyyat nümunələrini oxuyanda görürsən ki, bu nümunələrdə insanların istək və ehtiyacları haqda bir sətir belə, yoxdur, yazar yazdıqlarına özünü belə, inandıra bilməyib, faktlar həqiqət ələyindən keçirilməyib. Bu cızma-qaralarda oxuyub öyrənmək, dərs almaq üçün heç nə yoxdur. Sanki yazar-çizər bu dövrün, bu dünyanın adamı deyil, ümumiyyətlə, hissiyyatsız bir məxluqdur, nə hissi, nə də həyəcanı var, insanlara doğru yolu göstərmək əvəzinə yanlış ideologiyaları, bizə yabançı dəyərləri təbliğ edir. Belə adamlar kütlə psixologiyasından qurtula bilmir, əsərlərdə konkret ideya və məzmun ortaya qoymurlar. Onlar hamı dediyini deyir və təbii ki, oxucu bu qarmaqarışıqlıqda yeni bir addım, yeni bir ideya görə bilmir:

*Könlünüz cənnət istəyirsə əgər,*
*Xocanız başqa nəğmə bilməlidir.*
*Mütəvəkkil duran bu məbədlər*
*Həp kütübxanə, məktəb olmalıdır.*
*O zaman fəzlü mərifət günəşi*
*Ölgün, azğın cahanı həp süslər.*
*Bu sönük torpağın bulunmaz eşi,*
*Qurular hər bucaqda cənnətlər.*

Bu misralar ölməz şairimiz Hüseyn Cavidin "Azər" poemasına aiddir. Dünyanın bir çox ölkələrində amansız müharibələrin insanları fəlakətə sürüklədiyi bir vaxtda, dini fanatizmin ölkələrə bəla gətirdiyi bir dönəmdə qələm adamları üzərlərinə düşən məsuliyyətləri dərk etməli, ümumbəşəri ideyaların carçısına çevrilməli, yazarkən "Bunu nə üçün yazıram?" – deyə özünə sual verməlidir. Yüz il bundan öncə yağış duası üçün müsəllaya çıxanlar vardı və onlar o dövrün şair və yazıçılarının kəskin satira atəşinə tutulurdu. Bu gün də eyni məqsədlə çöllərə düşənlər var. Ancaq nədənsə, qələm adamlarımız insanları narahat edən məsələlərdən yox, güldən-çiçəkdən və böcəkdən, ilahi eşq əvəzinə birgünlük sevgilərdən yazır, fikir, ideya və forma, məzmun oğurluğu ilə məşğul olurlar. Bütün bunlar isə təbii ki, oxucunu kitabdan çox uzaq salır.

Görkəmli şairimiz Məmməd Araz sözün qüdrətini onun doğruluğunda görürdü. O, böyük sənətkar Məhəmməd Füzuliyə müraciətlə yazdığı "Artıran söz qədrini..." şeirində sözün qiymətdən düşdüyünü, "sözün qəddinin əyildiyini" yanğı ilə belə təsvir edirdi:

*Biz artıra bilmədik sözün qədrini, ustad!*
*Əydik də qamış kimi sözün qəddini, ustad!..*
*Sözə əhya vermədik, sözü şeypur elədik;*
*Biz düzəldə bilmədik sözün qəddini, ustad!*

Bəli, biz oxucuların bu günün şair və yazıçılarından da tələbi odur ki, sözün qədrini-qiymətini bilsinlər, sözü əyməsinlər, əksinə, ucaltsınlar. Bax o zaman kitab çıxarmaq üçün çoxlu pul tökməyə və başqa şəhərlərə üz tutmağa ehtiyac qalmayacaq. Elə doğma Naxçıvanımızda sözə dəyər verənlər "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində kitabınızı nəfis şəkildə çap edib, sizə təhvil verəcəklər.

**Səbuhi HÜSEYNOV**

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya tərəfindən Babək qəsəbə 1 nömrəli tam orta məktəbdə maarifləndirici görüş keçirilib.

Tədbirdə Babək rayonu üzrə ümumtəhsil məktəblərində tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlər və məktəb psixoloqları iştirak edib. Məktəblərdə psixoloji xidmətin təşkili, sağlamlıq imkanları məhdud uşaqların tədrisdə iştirakının vəziyyəti, onların təhsili ilə bağlı psixoloqlar tərəfindən müşahidələr əsasında hazırlanan fərdi proqramlarla bağlı söhbətlər aparılıb.

Komissiya üzvləri tərəfindən tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## İdmanın peşə seçiminə təsiri

***İdman cəmiyyətin ayrılmaz qoludur. İdman bir fərdin cəmiyyət üçün yararlı yetişməsi, ictimai-siyasi həyatda mühüm rol oynaması üçün onu zərərli vərdişlərdən çəkindirən vasitədir. Bəzən bu sahəni insanlar öz peşələrinə görə də dəyərləndirib seçirlər.***

Aparılan araşdırmalardan sonra ortaya maraqlı faktlar çıxıb. Belə ki, insanların 80 faizi gələcəkdə sahib olacaqları peşədən, sənətdən öncə idmanın hər hansı növü ilə məşğul olublar. Bəs buna necə nail olunub?

Cəmiyyətimizdə valideynlərin övladlarının sənət, peşə seçiminə, karyera qurmasına təsiri nə dərəcədədirsə, onların idmana olan marağı da məhz bunun göstəricisidir. Əslində, bu, uşağa dəstək deyil. Bəzən valideynlər övladlarını özləri kimi görmək istəyirlər: ata həkimdirsə, övladı da mütləq həkim olmalıdır. Halbuki uşağın idmana marağı daha çoxdur. Maraqlı olan odur ki, valideyn də məhz uşağına müdaxilə etdiyi həmin yaşda özü də idmana meyilli biri olub. Belə müdaxilələr uşağın inkişafına maneçilik yaradır, onun potensialının itib-batmasına səbəb olur.

Uşaqların idmana cəlb olunması və sonrakı dövrlərdə onların öz istedadlarına güvənməsi də valideynlərindən asılıdır. Yəni onun seçəcəyi peşə, sənət yolunda mütləq şəkildə dəstəyə ehtiyacı olmalıdır. Valideyn hər bir anda övladını sağlam ruhda tərbiyə etmək üçün idman sahəsinə nisbətən bələd olmalıdır. Bu zaman uşaq və ya gənc özünü daha yaxından tanıyır, özünəinamı artır, fiziki xüsusiyyətləri, sağlamlıq vəziyyəti, güclü və zəif tərəfləri, zəka səviyyəsi, xüsusi qabiliyyətləri, çatmaq istədiyi ideallar və arzu etdiyi müvəffəqiyyət növü haqqında məlumat sahibi olur. Bu zaman o həm də öz xarakteri ilə seçdiyi peşənin xüsusiyyətləri arasındakı uyğunluğu tapır.

Cəmiyyətə inteqrasiya olmaq üçün idmanın vacibliyi məhz burada daha aydın görünür. Bu sahə ilə bir müddət məşğul olan insanlar seçdikləri peşəni məhz idmanın hansı sahəsi ilə məşğul olublarsa, o istiqamətə yönlənirlər. Məsələn, aparılan araşdırmalar göstərir ki, icra orqanlarında çalışan kişilərin 4,3 faizi daha çox zehin tələb edən idman növləri ilə məşğul olublar (şahmat, dama, stolüstü oyunlar). Güc strukturlarında çalışanların 8,9 faizi 10-16 yaş arasında küçə döyüşlərinə maraq göstəriblər. Onların çoxu qaydasız döyüş, boks, karate və taekvondo ilə hobbi kimi məşğul olublar. Çox maraqlıdır ki, güləş, sambo, cüdo və basketbolla məşğul olanların, bu növlərə maraq göstərənlərin 27 faizi yüksək vəzifədə çalışırlar. Yəni onların peşə seçimi öz iradə və savadları ilə yanaşı, həm də uzaqgörən siyasətləri nəticəsində olur. Uşaq və ya gənc olarkən gimnastika, atıcılıq, atçılıq, qolf və böyük tennislə məşğul olanlar isə peşə seçərkən həmişə çətinliklə üzləşirlər. Bir qədər passiv olan belə insanlar daha çox oturaq işə meyillidirlər. Odur ki, aparılan araşdırmaların nəticəsinə əsasən bu növlərə maraq göstərən qadınların 68 faizdən çoxu hazırda evdardır.

Bəs uşaqları peşəyə yönəldərkən onları idmana necə istiqamətləndirmək olar? Məsələn, uşaq ibtidai sinifdə oxuyarkən onun riyaziyyata marağını nəzərə alıb şahmata yönləndirmək lazımdır. Artıq ibtidai sinifdən sonra idmana həvəsli olan uşağı daha çox maraq göstərdiyi fənnə görə yönəltmək olar. Yəni V-IX siniflər arasında uşaq həkim, psixoloq, polis və ya mühəndis olmaq istəyirsə, o zaman güləş, voleybol, qaydasız döyüş, karate, uşu-sando ilə məşğul olmalıdır. Sürücü, jurnalist, mühəndis, kompüter proqramçısı kimi səbir, təmkin tələb edən peşələrə yiyələnmək istəyən uşaqları isə adətən, ağırlıqqaldırma, dama, aerobika kimi növlərə yönləndirmək lazımdır.

Bəs idmanı peşə hesab etmək olarmı? Bəli. Səbəbinə gəlincə, hər bir insanın yaradılışdan xüsusi bir istedadı olur və bu bacarığı özündə kəşf edə bilirsə, artıq onunla böyük nailiyyətlər qazanır, həmin işdən maddi və mənəvi qazanc əldə edir. Bu da həmin insanda peşəyə çevrilir.

Yuxarıda qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, idman və peşə seçimi nəzəri əsaslarla formalaşıb. Yəni idman psixologiyası insanın gələcək həyatında müstəsna rol oynayır. Təbii ki, valideyn uşağı öz istəyindən çəkindirmirsə. Müasir dövrün təbirincə desək, idman elmin humanitar istiqamətdə sürətli inkişafına təkan verən vasitədir.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, Bəhruz Kəngərli küçəsi 7-də yaşamış Məmmədov Əli Məmməd oğlunun adına olan 3176 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Abbasov Hüseyn Əli oğlunun adına olan evin 65A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 802